DOI: 10.36719/2663-4619/58/77-80

**Yeganə Xanoğlan qızı Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
yeganememmedova.doc@gmail.com

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN NİTQİNİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ TAPMACALARIN ƏHƏMİYYƏTİ

**Xülasə**

Bu gün məktəbəqədər yaşlı uşaqların ana dilinə yiyələnməsi təlim-tərbiyə işinin mühüm vəzifələrindən biridir. Uşağın nitq və düşüncəsinin inkişaf etdirilməsi, ətraf aləmi dərk etməsi, şəxsiyyətinin hərtərəfli formalaşması ilə sıx sürətdə bağlıdır. Uşaqların təfəkkürünü və nitqini inkişaf etdirmək, ətraf mühit haqqında təsəvvürlərini genişləndirmək və müşahidəçilik qabiliyyətlərini artırmaq üçün tapmacaların böyük rolu vardır. Əqli tərbiyənin mühüm vasitəsi kimi tapmacaların yaradılmasının məqsədi diqqətin və nitqin inkişafına kömək göstərməkdən, dildə olan çətin sözləri yaxşı tələffüz etməyi bacarmaqdan, həmin sözləri tez-tez danışmaqla, təkrarlamaqla düzgün demək vərdişinə yiyələnməkdən, diqqəti toplamaqdan, söz ehtiyatını zənginləşdirməkdən ibarətdir. Beləliklə, tapmacalar uşaqların zehnini, təfəkkürünü cilalayır, həyatın müxtəlif sahələrinə dair onlara biliklər verir, görüş dairələrini genişləndirir, əşya və hadisələr haqqında məlumatlarını zənginləşdirir.

***Açar sözlər:*** *məktəbəqədər təhsil, ana dili, nitq inkişafı, tapmacaların əhəmiyyəti, bilik, bacarıq, vərdişlər*

## The importance of riddles in the speech development of preschool children

**Summary**

Today, mastering the mother tongue of preschool children is one of the important tasks of education. The development of a child's speech and thinking, perception of the world around him, is closely linked with the comprehensive formation of his personality. Riddles play an important role in developing children's thinking and speech, broadening their understanding of the environment, and enhancing their observation skills. The purpose of creating riddles as an important means of mental education is to help develop attention and speech, to be able to pronounce difficult words well, to acquire the habit of saying them correctly by speaking and repeating them often, to concentrate and to enrich vocabulary. Thus, riddles polish children's minds, give them knowledge about different areas of life, expand the circle of meetings, enrich their knowledge about objects and events.

***Key words:*** *preschool education, mother tongue, speech development, importance of riddles, knowledge, skill, habits*

## Giriş

Məktəbə yenicə gəlmiş uşağın müvəffəqiyyəti və uğursuzluğu hər şeydən əvvəl, onun ana dilinə necə yiyələnməsi ilə, nitqin inkişafı ilə müəyyən edilir. Təsadüfi deyildir ki, I sinifdə dərs ilinin əvvəlində həftəlik təlim yükünün tam yarısı ana dilinin tədrisinə həsr edilir. Bu ona görədir ki, şifahi nitqi inkişaf etməyən, öz fikrini ana dilində ifadə etməyi bacarmayan uşaq, riyaziyyat, təbiətşünaslığı, təsviri incəsənəti və başqa fənləri də dərindən başa düşə bilməz. Uşaq nə qədər tez və nöqsansız danışmağı, öz fikir və hisslərini düzgün, sərbəst, cəld ifadə etməyi bacarırsa, yaşıdlarından ibarət kollektivə o qədər tez daxil olar və onlarla ünsiyyət saxlayar. Ona görə də bu yaş dövründə uşaqların nitqinin inkişafı ön plana çəkilməlidir. Uşağın nitq və düşüncəsinin inkişaf etdirilməsi, ətraf aləmi dərk etməsi, şəxsiyyətinin hərtərəfli formalaşması ilə sıx sürətdə bağlıdır. Böyüməkdə olan gənc nəslə məişətdə, əməkdə, ictimai fəaliyyətdə ana dilinin zənginliklərindən istifadə etməyi öyrətmək təlimin bütün mərhələlərində mühüm bir vəzifədir.

Unutmaq olmaz ki, nitq bütövlükdə insan şəxsiyyətini əks etdirir. Ona görə də uşağın nitqinin inkişafı və tərbiyəsinin əsasında bütövlükdə onun şəxsiyyətinin inkişafı və tərbiyəsi durur. Uşaq bağçasının qarşısında uşaqlara ətrafdakı adamlarla ünsiyyətdə olarkən, ana dilindən sərbəst istifadə etməyə və şifahi şəkildə öz fikirlərini düzgün və aydın söyləməyi öyrətmək, onlarda bədii sözə maraq və məhəbbət hissi tərbiyə etmək əsas vəzifələrdəndir. Bu vəzifələr uşağın uşaq bağçasında olduğu bütün müddətdə, hər yaş qrupu üçün proqramın tələbinə müvafiq şəkildə tərbiyəçi tərəfindən həyata keçirilir.

Doğma ana dilinə yiyələnməkdə şifahi xalq yaradıcılığı mühüm vasitələrdəndir. Kiçik yaşlı uşaqların nitqinin inkişaf etdirilməsində tapmaca, yanıltmac, təmsil və şeirlərin də böyük rolu vardır. Tapmacalar uşaqların təfəkkürünün və nitqininin inkişafına güclü təsir göstərərək, onları düşündürməyə, fakt və hadisələri tutuşdurmağa, fərqli və oxşar cəhətlərini müəyyənləşdirməyə istiqamətləndirir.

Uşaqların təfəkkürünü və nitqini inkişaf etdirmək, ətraf mühit haqqında təsəvvürlərini genişləndirmək və müşahidəçilik qabiliyyətlərini artırmaq üçün tapmacaların böyük rolu vardır. Tapmacalar uşaqların təfəkkürü ilə yanaşı, onların nitqinin səlistləşməsinə, lüğət ehtiyatının zənginləşməsinə də səbəb olur. Deməli, tapmacalar uşaqların zehnini, təfəkkürünü cilalayır, həyatın müxtəlif sahələrinə dair onlara biliklər verir, görüş dairələrini genişləndirir, əşya və hadisələr haqqında məlumatlarını zənginləşdirir

Tapmacalarda əşyanın bir və ya bir neçə əlamətləri verilir, bunun əsasında cavabı tapmaq tələb olunur. Tapmacaların cavabını tapan zaman uşaqlarda fikirləşmək bacarığı inkişaf edir. Çünki, bir əlamət bəzən bir neçə əşyaya aid edilə bilər, ona görə də, burada fərqləndirici xüsusiyyəti tapmaq əsas tələbdir. Uşaq əslində ətrafındakı bütün əşyalara və hadisələrə fikir vermiş, onlar haqqında müəyyən təsəvvürə malik olmuşdur. Tapmacalara cavab axtararkən uşaq bütün bu əlamətləri və xüsusiyyətləri yada salır, fikirləşir, cavabı tapdıqdan sonra isə həmin əşya haqqında nəzərindən qaçmış digər məlumatlara da yiyələnir. Beləliklə, uşağın hafizəsinə yeni məlumatlar daxil olur, onda yadda saxlama və yada salma inkişaf edir (Qafarlı, 2013:273).

Tapmacalar uşağın təfəkkürünü, hafizəsini, iti düşünmə qabiliyyətini inkişaf etdirir, ətraf hadisələr, təbiət, bitkilər və heyvanlar aləmi haqqında biliklərini artırır. Tapmacaların təhlili göstərir ki, tapmacalar təkcə insanın əqli tərbiyəsinə deyil, həm də estetik və əmək tərbiyəsinə də böyük təsir göstərir. Tapmacalarda təbiət və təbiət gözəllikləri elə təsvir olunub ki, bu da estetik hisslərin inkişafına böyük təsir göstərir. İnsan həyatında əməyin rolu və əmək alətlərinə aid olan tapmacalar uşaqlarda əməyə maraq və müsbət münasibəti formalaşdırmağa imkan yaradır.

Tərbiyəçi uşaqlara tapmacaları tədris edəndə maraqlı əyani vəsait və slaydlar hazırlayaraq uşaqların yüksək səviyyədə mənimsəməsinə nail ola bilər. İstər əyani vəsaitlər, istərsə də slaydlar elə hazırlanmalıdır ki, uşaqların tapmacalara marağı artsın. Həmçinin, tərbiyəçi uşaqların yaşını və bilik səviyyəsini nəzərə alıb onlara uyğun tapmacaları seçməli, onların məntiqini inkişaf etdirməlidir. Deməli, tapmacaları öyrədəndə istər tərbiyəçi, istərsə də evdə valideyn tək folklor nümunələri olaraq uşaqlara mənimsətmir, həm də onların məntiqini inkişaf etdirir. Çünki tapmaca – insanın zehni qabiliyyətini, ağlının çevikliyini yoxlamaq məqsədilə yaradılan ədəbi janrdır.

Bildiyimiz kimi, tapmacalarda çox variantlılıq var. Tədris zamanı bu variantlılıq nəzərə alınsa, bu da uşaqların lüğətinin zənginləşməsində böyük rol oynayacaq. Məsələn:

Qəndə bənzər, dadı yox,
Göydə gəzər, qanadı yox. (qar)
* * *
Göydən gəlir dərvişlər,
Kürkün yerə sərmişlər.
O qədər oynamışlar
Xurdu-xəşil olmuşlar. (qar)
* * *
Dağdan gəlir, dağ kimi,
Ağappaq sazaq kimi,
Sərilir həsir kimi,
Duranda, kəsir kimi (qar)

Belə tapmacalar uşaqların inkişafında bir başqa rol oynayır. Belə ki, fərqli formalarda eyni mənanı verən tapmacalar uşaqlarda söz ehtiyatının artmasında, lüğətlərinin zənginləşməsində xüsusi əhəmiyyətə malikdir. Bir neçə variantda verilən belə tapmacalar uşaqların həm omonim, həm də sinonim lüğətinin artmasına da böyük təsir edir. Həm də onları bir çox yöndən düşündürür. Bu da onların məntiqlərinin, təfəkkürlərinin inkişafına gətirib çıxarır. Mövzu dairəsi geniş olan, bir çox sahəni əhatə edən – elm, mətbuat, elmitexnika, bitkilər, quşlar, heyvandarlıq, yabanı və dənli bitkilər, ərzaq, meyvələr, geyim və bəzək, musiqi alətləri, təbii hadisələr, məişətlə bağlı və s. Tapmacaların müsbət keyfiyyətləri çoxdur. Ən əsası uşaqları müxtəlif sahələrdə düşündürmə xüsusiyyətinə malikdir. Belə ki, müxtəlif sahələri əhatə edən tapmacalar uşaqların bir çox mövzularda biliyə yiyələnmələrinə, geniş düşünmələrinə gətirib çıxarır. Ona görə də tapmacaları uşaqlara öyrədərkən yaş həddini nəzərə alaraq müxtəlif sahələrə uyğun tapmacalar seçilməli, onların geniş düşünmələrinə şərait yaradılmalıdır.

Təbiət və təbiət hadisələri ilə bağlı çoxlu tapmacalar vardır. Bu tapmacalara diqqət yetirək: «Üçü bizə yağıdı, Üçü cənnət bağıdı, Üçü yığar gətirər, Üçü vurar dağıdar» (ilin fəsilləri), «Bir kişinin dörd evi var: biri yaşıldı, o biri al, biri sarıdı, o biri ağ» (fəsillər) və s.

Zaman haqqında təsəvvürlərin verilməsi bununla kifayətlənmir və başqa tapmacalarda daha da zənginləşdirilir: il yalnız fəsillərdən ibarət deyil. Fəsillər aylara, aylar isə həftələrə, həftələr sutkalara, sutkalar isə gecə-gündüzə bölünür. Məsələn, «Atamın yeddi oğlu var, yeddisi də bir boyda» və «O hansı quşdur ki, bir üzü ağdı, bir üzü qara?» tapmacalarında həftənin günləri və gecə-gündüz haqqında məlumat verilir.

Nəbatat aləminə aid olan tapmacalar: «Ağacın tutmaq olmaz, ətrindən doymaq olmaz» (qızılgül), «Çiçəkləyər gül deyil, ağdı, amma qar deyil, istisi var yun deyil» (pambıq), «Yağış yağanda çimər, yuyunar, yazda geyinər, qışda soyunar» (ağac), «Babam oturub al çuxada, kim soyundursa gözü çıxar» (soğan), «Bir toyuğum var, yer altında yumurtlar» (kartof) və s.

Heyvanlara aid olan tapmacalar: «Ovun alsan mırıldar, tumarlasan xoruldar» (pişik), «Adı dağları bəzər, başında ağac gəzər» (maral), «Ağzın açar, zəhər saçar, hamı görüb, geri qaçar» (ilan) və s.

Quşlara aid olan tapmacalar: «Bağda uçar səhər-səhər, verər bizə yazdan xəbər» (qaranquş), «Başı daraq, quyruğu oraq, səhər durar, səsin yayar» (xoruz) və s.

Həşəratlara aid olan tapmacalar: «Aşıq eldən yuxarı, Şana teldən yuxarı, Aşıq bir şey görübdü, Dizi beldən yuxarı» (çəyirtkə), «Bu meşə gül meşəli, Altı tər bənövşəli, Bir kişinin min oğlu, Hamısı bir peşəli» (bal arısı) və s.

Ev əşyalarına aid olan tapmacalar: «Bizdə bir gəlin var, saçıyla yer təmizlər» (süpürgə), «Bizdə bir kişi var, hər gələnə əl verir» (qapı dəstəyi), «Hay gedər, huy gedər, bircə qarış yol gedər» (qapı), «Nə evdədir, nə çöldə, nə göydədir, nə yerdə» (pəncərə) və s (Əliyev, 2012:98).

İnsanı həyat hadisələri ilə tanış edən tapmacalardan yüzlərlə misal göstərə bilərik. Tapmacalar uşaqlara rəqəmləri öyrətmək, elementar saymaq vərdişləri aşılamaq nöqteyi-nəzərindən də əhəmiyyətlidir. Uşaqlar tapmacalarda rəqəmləri eşidir, sadə hesab «əməliyyatları» aparır və yadda saxlamağa məcbur olur.

Tapmacaların digər mühüm didaktik əhəmiyyəti onların inkişafetdirici imkanlarının olmasıdır. İstənilən yaş dövründə uşaqlara müvafiq tapmacalar verilməsi onlarda «nə hardadır?», «bunu nədən, necə düzəldiblər», «nə nəyə lazımdır?», «daha necə ola bilər» kimi suallar doğurur. İdraki maraqların öyrənmə prosesinin çox mühüm atributu olduğu məlumdur. Bunun nəticəsidir ki, tapmaca əgər yaşa və gücəmüvafiq seçilibsə, uşaqların, demək olar ki, hamısının fikirləşməsinə, axtarmasına səbəb olur. Tapmacanın cavabı tapılanda və ya tapmacanı deyənin özü bu cavabı söyləyəndə belə, bu idraki maraq birdən-birə, dərhal sönmür. Uşaqlar hələ cavabın deyilən əlamətlərə tam uyğun olub-olmadığını fikirən yoxlayır, mübahisə edir, bəzən isə hətta həmin əlamətlərin digər əşya və hadisələrə aid ola biləcəyinə dair misallar gətirirlər.

Tapmacalar müqayisə etmək, qarşılaşdırmaq, tutuşdurmaq qabiliyyət və bacarıqlarının inkişafı üçün də geniş imkanlara malikdir. Ümumiyyətlə, tapmacada haqqında bəhs olunan əşya və hadisəni əlamətlərinə görə tapmaq üçün fikirləşən uşaq məcbur olur ki, əvvəlcədən tanış olduğu, təsəvvürünə gətirə bildiyi məlum əşya və hadisələrdəki əlamətlərələ söylənilən əlamətlər arsında müqayisə aparsın, onların uyğun gəlib-gəlmədiyini yoxlasın, müəyyən etsin, tutuşdursun.

Tapmacaların etnopedaqoji material kimi təhlili göstərir ki, bu müdrik xalq incilərinin dörd mühüm pedaqoji imkanlarından istifadə edilə bilər:

**1.** Tapmacalar geniş öyrədici, bilikverici, təhsilləndirici əhəmiyyət daşıyır;

**2.** Tapmacaların çox böyük inkişafetdirici imkanları vardır;

**3**.Tapmacalar şəxsiyyətin müxtəlif keyfiyyətlərinin tərbiyəsində istifadə edilə bilər;

**4.** Uşaqların təlim-tərbiyəsində tapmacaların diaqnostik imkanlarından müvəffəqiyyətlə istifadə etmək olar (Əliyev, 2009:158).

Müasir pedaqoji prosesdə (istər təlim prosesində, istərsə də məşğələdənkənar müxtəlif tədbirlər – bilik yarışları, müsabiqələr, müxtəlif uşaq bayramları və s. zamanı) tapmacalardan istifadənin səmərəliliyini təmin etməkdən ötrü bir sıra şərtlərə əməl olunmalıdır:

***1.*** *Tapmacaların tətbiqi zamanı uşaqların yaş xüsusiyyətləri nəzərə alınmalıdır.* Aydındır ki, məktəbəqədər yaşlı uşaqlara verilən tapmacalar onların ətrafda hər gün gördükləri, təmasda olduqları əşya və hadisələrə aid olmalıdır. Sadə cavablar tələb edən tapmacaların həlli, hər şeydən əvvəl, uşaqları bu məşğələyə həvəsləndirir, onlarda öyrənmə maraqları yaaradır. Məslən,

Bizim evdə bir kişi var,
İkici dənə dişi var. (qayçı)

* * *

Bayırda sağdı,
Pambıqdan ağdı.
Evə gələr,
Suya dönər. (qar)

**2.** *Uşaqlarda tapmacaların xüsusiyyətləri haqda biliklər və cavabları tapmaq vərdişləri yaradılmalıdır.* Bundan ötrü sadə tapmacalardan başlayaraq daha mürəkkəb fikri əməliyyatlar aparmaq tələb edən tapmacalara doğru gedilməliidir.

**3.** *Tapmacalar qarşıya qoyulmuş məqsəddən asılı olaraq seçilməli, sadədən mürəkkəbə, asandan çətinə, məlumdan məchula qaydalarına müvafiq qruplaşdırılmalıdır.*

**4.** *Tapmacaların təlim prosesində tətbiqi daha çox təlim maraqları yaradılması, uşaqların əqli qabiliyyətlərinin inkişafına yönəldilir.* Buna görə də təlim prosesində konkret düzgün cavab tələb edən tapmacalardan istifadə edilməlidir. Məşğələdənkənar təlim-tərbiyə işlərində isə, həm də əyləncə xarakterli, dərketmənin sürətini müəyyən etməyə imkan verən tapmacalardan daha çox istifadə olunmalıdır. Məsələn, əslində cavabı özündə olan tapmacalara müraciət edilə bilər.

Beş, beş, beş - on beş,
Üç – on səkkiz, iki – iyirmi.
Neçə oldu hamısı?
(5+5+5=15+3=18+2=20)

**5.** *Tapmacaların cavabları izah olunmalıdır.* Uşaqlar göstərilən əlamətlərin cavabda tam əhatə olunduğunu yəqin etdikdə maraq daha da artır.

Belə olduqda uşaqlar, həm tapmaca yaradıcılığının xüsusiyyətləri ilə tanış olur, həm də nitqlərinə yeni sözlər daxil olur. Bu isə onlarda yaradıcılıq qabiliyyətlərinin də inkişafına səbəb olur. Tapmacaların təlim-tərbiyə prosesində düzgün tətbiqi, onlar üzərində işin pedaqoji baxımdan səmərəli təşkili müəyyən bir müddətdən sonra uşaqların özlərinin də yeni tapmacalar tərtib etməsinə imkan verir.

## Nəticə

Əqli tərbiyənin mühüm vasitəsi kimi tapmacaların yaradılmasının məqsədi diqqətin və nitqin inkişafına kömək göstərməkdən, dildə olan çətin sözləri yaxşı tələffüz etməyi bacarmaqdan, həmin sözləri tez-tez danışmaqla, təkrarlamaqla düzgün demək vərdişinə yiyələnməkdən, diqqəti toplamaqdan, söz ehtiyatını zənginləşdirməkdən ibarətdir.

Tapmacalar kurikulum üzrə uşaqlara əqli inkişafa xidmət edən məsələləri öyrətməkdə faydalıdır. Bu zaman uşaqlar naməlum əşyanın əlamətlərinə görə tapmağı, hesablama aparmaq qabiliyyətinə malik olmağı, hadisə və əşyalar arasında assosiativ əlaqə və fərqlilikləri bilməyi öyrədir ki, bu da uşaqların xəyal dünyasını və əqlini inkişaf etdirməyə xidmət edir. Buna görə də, uşaq folkloru nümunələrindən olan tapmacalar uşaqların nitqinin, düşünmə və danışıq qabiliyyətinin inkişafına güclü təsir göstərir.

## Ədəbiyyat

1. Qafarlı Ramazan. Uşaq folklorunun janr sistemi və poetikası. - Bakı, «Elm və Təhsil», 2013.
2. Əliyeva S. Xalq pedaqogikasında tərbiyə məsələləri. Bakı: ADPU, 2012
3. Əliyev İsmayıl. Azərbaycan etnopedaqogikası. Bakı, «Elm və Təhsil», 2009.
4. Ə.Həşimov, F.Sadıqov. Azərbaycan xalq pedaqogikası (dərslik). Bakı, «Ünsiyyət», 2000.

**Rəyçi: dos.Z.Vəliyeva**

Göndərilib: 22.09.2020 Qəbul edilib: 23.09.2020